AZƏRBAYCAN DÖVLƏT AQRAR UNİVERSİTETİ

**Aqrar sahənin iqtisadiyyatı kafedrası**

# SİLLABUS

## MALİYYƏ-KREDİT SİSTEMİ TƏŞKİLATLARININ VERGİYƏ CƏLB EDİLMƏSİ FƏNNİNDƏN

***(6 kredit (AKTS))***

### *Müəllim haqqında məlumat*

***Müəllim:*** i.e.n., dosent İsmayılov Ceyhun Nəsib oğlu
**Kafedra**: Maliyyə və İqtisadi nəzəriyyə kafedrası, 1-ci mərtəbə, 118
**İş nömrəsi: (022) 268-94-53**
**Mob**: (055) 814-70-08
**İş saatları: $8^{30}$ - $18^{10}$**
**E-mail: cismayilov67@mail.ru**

Müəllim əvvəlcədən tələbələrə elektron poçtla məlumat verəcək və ya iş vaxtının yenidən təyin edilməsi zərurəti yarandıqda bu barədə məlumat verəcəkdir.

Bu sillabus kursa aid olan bütün praktiki aspektləri, tələbləri və müddətləri əhatə edən əsas sənəddir. Sənəd tələbələr tərəfindən alındıqdan dərhal sonra hərtərəfli oxumalı və semestr ərzində bu sənədin tələblərinə əməl edilməlidir.

Tələbələr WhatsApp qrupu və ya tələbələrin e-poçt qrupu vasitəsilə müəllimlə əlaqə qura bilərlər. Bu e-poçt ünvanı, elektron məlumatların ötürülməsi üçün tələb olunur, burada tələbələr müəllim tərəfindən təqdim oluna fənlə əlaqəli informasiyalarla tanış ola bilərlər.

### *Kurs cədvəli*

Dərslər aşağıdakı zamanlarda keçiriləcək:

Cümə axşamı,17:00-18:20 (mühazirə)
Çərşənbə, 17:00-18:20 (seminar)

### *Fənnin təsviri*

Dövlət büdcəsinin formalaşmasında vergilərin rolu olduqca böyükdür. Bu nöqteyi nəzərdən maliyyə-kredit sistemi təşkilatlarının vergiyə cəlb edilməsi də mühüm əhəmiyyət kəsb edir. Maliyyə-kredit sistemi təşkilatları adətən borclar üçün müəyyən etdikləri daha yüksək faiz tarifləri ilə kreditorlara ödənilən faiz dərəcələri arasındakı fərq hesabına göstərdikləri xidmətlərə görə gəlir əldə edirlər ki, bu gəlir də müəyyən edilmiş qanunvericiyə uyğun olaraq vergiyə cəlb edilir. Prinsipcə maliyyə-kredit sistemi təşkilatlarının gəlirləri təsərrüfat fəaliyyətinin digər subyektlərinin gəlirlərinin vergiyə cəlb edilməsi kimi müəyyən edilir.

### *Planlaşdırlan təlim nəticələri*

Fənn tədrisinin sonunda tələbələr aşağıdakıları mənimsəməlidir:

- Maliyyə-kredit sistemi təşkilatlarının strukturunu;
- Maliyyə-kredit sistemi təşkilatlarının gəlir mənbələrinin müəyyən edilməsi;
- Maliyyə-kredit sistemi təşkilatlarının hansı vergilərə cəlb edilməsi;
- Maliyyə-kredit sistemi təşkilatlarından tutlan vergilərin xüsusiyyətləri;
- Maliyyə-kredit sistemi təşkilatlarının vergiyə cəlb olunmasının hüquqi əsası və qanunvericilik bazasını;

*Fənn üçün 45 saat (6 kredit) verilir. Fənn 15 həftəlik bir semestr ərzində tədris olunmaq üçün hazırlanmışdır. Hər ikinci həftədə iki saat mühazirə və hər həftə iki saatlıq seminar var.*

### *Fənnin tematik təqvimi*

| **Həftə** | **Mövzu** | **Mühazirə** | **Seminar** |
|---|---|---|---|
| Həftə 1, 2 | Maliyyə-kredit sistemi təşlilatlarının vergiyə cəlb olunmasının mahiyyəti və prinsipləri | 2 | 4 |
| Həftə 3, 4 | Maliyyə-kredit sistemi təşklatlarının vergiyə cəlb olunmasının hüquqi əsası və qanunvericilik bazası | 2 | 4 |
| Həftə 5, 6 | Maliyyə-kredit sistemi təşkilatlarının fəaliyyətinin vergilər vasitəsilə tənzimlənməsi üsulları | 2 | 4 |
| Həftə 7, 8 | Büdcə təşkilatlarının vergiyə cəlb olunması mexanizmləri | 2 | 4 |
| Həftə 9, 10 | Bank və bank olmayan kredit təşkilatlarının | 2 | 4 |

| | | | |
|---|---|---|---|
| | vergiyə cəlb olunması mexanizmləri | | |
| Həftə 11, 12 | Sığorta təşkilatlarının vergiyə cəlb olunması mexanizləri | 2 | 4 |
| Həftə 13, 14 | Maliyyə-kredit sistemi təşkilatlarında vergi güzəştləri və vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət | 2 | 4 |
| Həftə 15 | Maliyyə-kredit sistemi təşkilatlarında vergi güzəştləri və vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət | 1 | 2 |
| **Cəmi:** | | **15** | **30** |

## *Mühazirənin quruluşu*

Mühazirə müddəti 80 dəqiqə əyani olaraq planlaşdırılır. Mühazirə zamanı mövzu ilə bağlı qeydlər etmək tələbələrin məsuliyyətidir. Mühazirənin elektron versiyası müəllim və ya universitetin veb saytından əldə edilə bilər.
Mühazirə zamanı slayd materiallardan tez-tez istifadə ediləcəkdir. Eyni zamanda, çətin mövzu seminar dərslərində hərtərəfli müzakirə ediləcək, aydınlaşdırılacaq və izah ediləcək. Mühazirə zamanı tələbələr mühazirəçidən qeyri-müəyyən olan materialı təkrarlamasını və ya aydınlaşdırmasını tələb edə bilərlər. Hər bir mövzu üzrə ədəbiyyatın müvafiq siyahısı tədris proqramının son hissəsində verilmişdir. Bundan əlavə, tələbələrin internet resurslarından istifadə etmələri məsləhətdir.

Mövzuya ayrılan saatların 25% -dən çoxunda iştirak etməyən tələbələr imtahana buraxılmırlar (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli, 348 nömrəli qərarı).

## *Seminar*

Seminar mövzuları və istifadə olunan ədəbiyyat siyahısı əvvəlcədən tələbələrə təqdim ediləcəkdir. Hər seminar üçün iki saat vaxt verilir. Seminarın əvvəlində tələbələrin nəzəri bilikləri təsdiqlənəcəkdir. Hər bir tələbə verilən suallara cavab verməli və mövzunu və onun əsas məntiqini başa düşdüyünü nümayiş etdirməlidir. Cavablar əzbərlənərsə və səthi olarsa, tələbənin fənni mənimsəmədiyi hesab olunur.

Hər tələbədən mövzu ilə əlaqəli bir təqdimat hazırlamaq tələb olunur. 10-15 dəqiqəlik təqdimatlar əvvəlcədən hazırlanmalıdır. 10-15 slayddan ibarət ola bilər. Təqdimatın sonunda nəticələri ümumiləşdirmək lazımdır. Təqdimatdan sonra mövzu bütün auditoriya tərəfindən müzakirə olunur. Tələbələrə əhatə olunan mövzu ilə bağlı test sualları da təqdim olunur.

***Tələbələr üçün tövsiyələr:*** *Tələbələr auditoriyada fəal iştirak etməyə, sual verməkdən, fikirlərini bildirməkdən və səhv etməkdən çəkinməməlidirlər.*

### *Sərbəst işlər*

Kredit sistemi ilə təhsil alan tələbə semestr ərzində sərbəst iş yerinə yetirməlidir. Sərbəst işlərin mövzuları əvvəlcədən müəyyən edilir və nəzərdə tutulmuş qrafik üzrə tələbələrə çatdırılır. Sərbəst işlər hər bir tələbəyə fərdi tapşırıq şəklində verilməlidir.

### *İmtahan*

İmtahan beş sualdan ibarət olacaqdır. Təqdim olunan bal dəyişdirilə bilməz (mexaniki və ya mövzunun hesablanmasında səhvlər istisna olmaqla). Verilən imtahan balı ilə razılaşmırsınızsa, bu məqsədlə Universitet tərəfindən yaradılan Apelyasiya komissiyası şikayət edə bilərsiniz. Apelyasiya komissiyası şikayətinizi əsaslı hesab edərsə, sizə yenidən imtahan vermək imkanı verilə bilər.

### *Qiymətləndirmə*

Kurs qiymətləri aşağıdakı cədvəldə qeyd edildiyi kimi dərsə davamiyyət, fərdi tapşırıqlar, seminar balları və buraxılış imtahanı balları ilə müəyyən ediləcək:

| Fəaliyyət növü | Maksimum qiymətləndirmə | Yekun qiymətləndirmənin %-i |
|---|---|---|
| Dərsə davamiyyət | 10 bal | 10% |
| Fərdi tapşırıqlar (10 mövzu) | Hər sərbəst işə 1 bal | 10% |
| Seminar nəticələri | 30 bal | 30% |
| İmtahan nəticəsi | 50 bal | 50% |
| Yekun kurs balı | 100 bal | 100% |

***Tövsiyə olunan ədəbiyyat***


1. Azərbaycan Respublikasının Konstitusuyası, Bakı 2015
2. Azəbaycan Respublikasının Vergi Məcəlləsi, Bakı 2010
3. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, Bakı 2014
4. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu, 29 dekabr 2012
5. "Azəbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 509-İVQD nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı
6. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu
7. "Vergi ödəyicisinin əldə etdiyi mənfəəti birbaşa müəyyən etmək mümkün olmadığı hallarda mənfəətin hesablanması Qaydaları" barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 55 №li 01.03.2001-ci il tarixli Qərarı (Dəyişikliklərlə)
8. "Artıq ödənilmiş vergilərin, fazilərin və maliyyə sanksiyalarının qaytarılması Qaydaları barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23.02.2001-ci il tarixli 48 №li Qərarı (12.06.2003-cü il tarixli 81№li Qərarla dəyişikliklərlə)
9. "Əmək haqqında tutulan vergi güzəştləri hüququnun müəyyənləşdirilməsi üçün sənədlərin siyahısı" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 4 yanvar 2001-ci il tarixli 4 saylı Qərarı
10. Vergi orqanlarında vergi ödəyicilərinin uçotunun aparılmasına daiq Metodiki Göstəriş
11. Bağırov D.A Vergi nəzarəti. Bakı, 2006
12. Bədəlov Ş.Ş., Məhərrəmov R.B., Qurbanov F.Ə. Büdcə sistemi. Bakı, 2003
13. Kəlbiyev Y.A. Vergilər və vergitutma: Sxem və cədvəllərdə. Bakı 2004
14. Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri. Monoqrafiya. Bakı. Elm. 2005
15. Musayev A.F., Rzayev Z.H., Süleymanov Q.S. Vergi sistemi. Dərs vəsaiti. Bakı, 1998
16. Musayev A.F., Kəlbiyev Y.A., Hüseynov A.A. Azərbaycan Respublikasının vergi xidməti: islahatlar və nəticələr. Bakı, 2002
17. Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M., Rzayev Z.H., Kəlbiyev Y.A. Vergitutmanın nəzəri və metodolji əsasları. Bakı, 2001
18. Məmmədov F.A., Musayev A.F., Sadıqov M.M., Kəlbiyev Y.A., Rzayev Z.H. "Vergilər və vergitutmanın" Bakı, 2010
19. Мусаев А.Ф., Садыгов М.М., Магеррамов Р.Б., Салаев Р.А. Налоги и налогообложане. Баку. 2005
20. Садыгов М.М., Зейналов В.З., Садыгов Г.М. Рыночная экономика: финансы и налоги. Баку. 2001